# Azərbaycanlı alimin kitabı Daşkənddə




**Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Özbək Dilinin İnkişafı Fondunun (ÖDİF) və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin təşkilatçılığı, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) iştirakı ilə filologiya elmləri doktoru dosent Elçin İbrahimovun "Türk xalqlarının ümumi əlifbası, imlası və əlaqə dili" adlı əsərinin özbək dilində nəşrinin təqdimatı keçirilib.**

Tədbiri ÖDİF-in direktoru, filologiya elmləri doktoru Əzizcan Eminov açaraq Özbəkistan Respublikasının dil siyasətindən bəhs edib, ölkədə digər qardaş türk dillərinə də böyük marağın olduğunu bildirib.

AMM-nin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə türk dillərinin populyarlaşdırılması, təbliği və tədrisinin vacibliyini qeyd edib, bu sahədə gerçəkləşdirilən layihələrdən söz açıb. Mərkəzin təşəbbüsü ilə Özbəkistanın bir neçə ali məktəbində Azərbaycan dilinin tədrisinə başlanıldığını vurğulayan K.Məmmədzadə gələcəkdə bunun daha da genişləndirilməsi istiqamətində işlərin aparıldığını, dil tədris vəsaitlərinin, danışıq kitabları və lüğətlərin çap edildiyini, dil kurslarının təşkil olunduğunu qeyd edib.

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, universitetin yanında Dövlət Dilinin Tədrisi və İxtisaslaşdırma Mərkəzinin direktoru, dosent İnamcan Azimov, Özbəkistan Dövlət Sənət və Mədəniyyət Universitetinin professoru Marufcan Yoldaşov təqdimatı keçirilən nəşrin Özbəkistanda aktual olan bir probleme toxunduğunu qeyd edərək, bu əsərin ana dilinin istifadəsi, imlası və əlifbası məsələləri sahəsində çalışan mütəxəssislər, tədqiqatçılar, tələbələr üçün çox dəyərli bir mənbə olduğunu vurğulayıblar.

Elçin İbrahimov əsərin kitabın Özbəkistanda çapının ana dilinin istifadəsində mövcud problemlərin aradan qaldırılması istiqamətində lazımlı mənbə olacağına ümid etdiyini söyləyib, nəşrin ərsəyə gəlməsində zəhməti olan hər kəsə minnətdarlığını bildirib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

Xalq qəzeti.- 2024.- 23 may, № 107.- S.10.